**“Əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara, məcburi köçkünlərə, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda olan qocalara, uşaqlara, aztəminatlı və ailə başçısını itirmiş şəxslərə, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlara, İİV-lə yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və Azərbaycan Respublikası tərəfindən qaçqın statusu verilmiş şəxslərə, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorlara tibbi və sağlamlıq imkanları məhdud uşaqlara tibbi və defektoloji yardımın (xidmətin) göstərilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 37 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.16-cı yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara, məcburi köçkünlərə, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda olan

qocalara, uşaqlara, aztəminatlı və ailə başçısını itirmiş şəxslərə, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlara, İİV-lə yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və Azərbaycan Respublikası tərəfindən qaçqın statusu verilmiş şəxslərə, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorlara tibbi və sağlamlıq imkanları məhdud uşaqlara tibbi və defektoloji yardımın (xidmətin) göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 mart tarixli 37 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 251; 2008, № 2, maddə 130; 2010, № 8, maddə 763; 2020, № 10, maddə 1290; 2021, № 4, maddə 425) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "Əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara, məcburi" sözləri "Məcburi" sözü ilə əvəz edilsin, adından və 1-ci hissədən "tibbi və" (ikinci halda) sözləri çıxarılsın.

2. Həmin Qərarla təsdiq edilmiş "Əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara, məcburi köçkünlərə, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda olan qocalara, uşaqlara, aztəminatlı və ailə başçısını itirmiş şəxslərə, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlara, İİV-lə yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və Azərbaycan Respublikası tərəfindən qaçqın statusu verilmiş şəxslərə, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorlara tibbi və sağlamlıq imkanları məhdud uşaqlara tibbi və defektoloji yardımın (xidmətin) göstərilməsi Qaydası" üzrə:

2.1. adında "Əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara, məcburi" sözləri "Məcburi" sözü ilə əvəz edilsin və "tibbi və" (ikinci halda) sözləri çıxarılsın;

2.2. 1-ci hissədən "əlillərə, sağlamlıq imkanları məhdud uşaqlara," sözləri və "tibbi və" (ikinci halda) sözləri çıxarılsın;

2.3. 2-ci hissədə “Əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, məcburi” sözləri “Məcburi” sözü ilə əvəz edilsin və həmin hissədən “tibbi və” (ikinci halda) sözləri çıxarılsın;

2.4. 3-cü hissədən “əlillik, sağlamlıq imkanlarının məhdudluğu,” sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

**Bakı şəhəri, 23 dekabr 2021-ci il**
**№ 403**